# Şamaxı soyqırımı

**Soyqırımdan əvvəlki vəziyyət:** 1918-ci il mart soyqırımının əsas səbəbləri barədə əvvəllər Bakıda yaşamış, sonralar Almaniyaya mühacirət etmiş, Kadet partiyasının üzvü B. Baykov öz xatirələrində belə yazırdı:

***" Rusiya imperiyasının bütün neftini Bakı verirdi. Neftin əksəriyyəti Volqa çayı vasitəsilə Rusiya şəhərlərinə daşınırdı. Volqada buzların ərimәsilә ticarət gəmilərinin fəaliyyəti martın ortalarında başlanırdı. Bolşeviklərin təxirəsalınmaz vəzifəsi Bakını tezliklə işğal etmək idi."***

Stepan Şaumyanın göstərişi ilə Stepan Lalayev yerli əhaliyə qarşı pılanlaşdırılan soyqırıma hazırlıq məqsədilə 1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərindən başlayaraq gizli surətdə Şamaxıda yaşayan ermənilərə silah paylamışdır. Bu dövrdə müxtəlif cəbhələrdən 7000 erməni əsgəri Bakıya gətirilərək Bakı Sovetinin hərbi qüvvələrinin tərkibinə daxil edilmişdi. İstintaq Komissiyası tərəfindən hazırlanan sənədə görə hələ yanvar ayında Bakı Soveti tərəfindən 15 maşın silah, mart ayının ortalarında isə 60 maşın silah və 2000 erməni əsgəri Şamaxıya göndərilmişdi.

**Soyqırım**: Şamaxı soyqırımının baş verdiyi dəqiq tarix bilinmir. Bəzi kitab və məqalələrdə hadisələrin 1918-ci il martın 18-də, bəzilərində 1918-ci ilin aprel ayında, bəzilərində isə 3–16 apreldə baş verdiyi qeyd olunur. Araşdırmalar Şamaxı soyqırımının qısa fasilələrlə bir neçə mərhələdə, Bakı və Qubadakı qırğınlardan əvvəl baş verdiyini təsdiq edir:

***I mərhələ — martın əvvələri – 27 mart 1918-ci il***

***II mərhələ — 30 mart – 9 aprel 1918-ci il***

***III mərhələ — 18 aprel – 1 avqust 1918-ci il***



18 mart 1918-ci il, səhər saat 6-da ermənilər Şamaxını mühasirəyə alaraq 10 top, yüzlərlə pulemyot və digər silahlarla şəhəri atəşə tutmuşlar. Bundan sonra şəhərin bir neçə məhəlləsində yanğınlar başlamış, şəhər əhalisi təslim olmağa məcbur olmuşdu. Şamaxıya daxil olan ermənilər şəhəri yenidən talan etmişlər. Şəhərdə az-çox salamat qalmış tikililər yandırılmışdır. Şamaxıda ermənilərin törətdikləri cinayətlər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Qətl edilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilib, gözləri çıxarılıb, qarınları yırtılıb, yandırılıb, işgəncə ilə öldürülüblər.



Gəncədən azərbaycanlı silahlı dəstələrin Şamaxıya köməyə gəlməsindən qorxuya düşən ermənilər və malakanlar Şamaxı qəzasının Qozluçay kəndinə çəkilirlər. Azərbaycanlı silahlı dəstələri onları təqib etməyə başlayır. Lakin onlara məlum olur ki, ermənilər və malakanların qüvvələri onlarınkından qat-qat çoxdur. Ona görə də dörd gündən sonra azərbaycanlı silahlı dəstələr şəhəri tərk etməyə məcbur olurlar. Gəncədən olan silahlı dəstələrlə Şamaxının əksər müsəlman əhalisi şəhəri tərk edir. Çoxlu şəhər sakini, xüsusilə yoxsullar, xəstələr, qocalar və uşaqlar şəhərdə qalırlar. Gəncədən olan silahlı dəstələr Şamaxını tərk etdikdən bir neçə gün sonra erməni və malakan dəstələri geri qayıdaraq yenidən Şamaxını tuturlar. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə divan tutulması əvvəlkindən daha böyük qəddarlıqla həyata keçirilir. Şəhərdə qalan azərbaycanlı əhali uşaqlar, qadınlar, qocalar da daxil olmaqla tamamilə məhv edilir. Şəhərdə azərbaycanlıların bütün əmlakı qarət edilərək erməni və malakan kəndlərinə aparılmışdı. Şəhərdəki bütün məscidlər, onların nəzdindəki müqəddəs yerlərlə birlikdə yandırılmışdı. 120 kənd olmuşdur ki, bunlardan da 86-sı soyqırıma məruz qalıb. Komissiya öz işini dayandırdığına görə soyqırıma məruz qalmış digər 33 kənd haqqında məlumat toplamaq mümkün olmamışdı.

"Piran-Şirvan" məhəllələri tamamilə talan edilmiş və yandırılmışdır. Şamaxı şəhərinin müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuş, şəhərin 13 məhəllə məscidi və məşhur Cümə məscidi yandırılmışdır.



1919-cu il martın 30-da Bakıda nəşr olunan "Azərbaycan" qəzetində (rus dilində) Şamaxı hadisəsi ilə bağlı "Şamaxının son günləri" başlığı altında yazı çap olunmuşdu (116, № 67, 1919). Həmin yazıda ermənilərin Şamaxıda törətdikləri qırğınların səbəbləri və bu qırğının törətdiyi faciələr əks olunmuşdu. Qəzet yazırdı ki, cəbhədən qayıdan erməni əsgərləri özləri ilə bir, hətta iki silah gətirirdilər və bu silahları da sonradan öz həmyerlilərinə paylayırdılar. Qəzetin məlumatına görə 1918-ci ilin yanvarından buraya Bakıdan emissarlar gələrək ermənilər arasında müsəlmanların əleyhinə geniş əks – təbliğat aparmağa başlamışdılar. Onlar yalnız ermənilər arasında deyil, eyni zamanda molokan və yəhudilər arasında da təbliğat aparmışdılar ki, güya müsəlmanlar sizi qıracaqlar. Halbuki, uzun illər boyu bir yerdə yaşayan molokan və yəhudilərlə bir dəfə də olsun yerli azərbaycan əhalisi arasında qarşıdurma yaranmamışdı. Belə bir ağır vaxtda, Şamaxını tərk edən rus əsgərləri də öz hərbi hissələri və silahlarını ermənilərə təhvil verib gedirdilər. Bunun müqabilində Şamaxıda azərbaycanlıların nə hərbi hissəsi, nə də silahlı dəstəsi yox idi. Hətta, yerli ziyalılar, xüsusən müsəlman dindarları hər hansı qarşıdurmanın baş verməməsi üçün bütün qüvvələrini sərf etmişdilər. Lakin St. Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti

erməni hərbi hissələrini Şamaxıya göndərərək yerli azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətmişdilər. Şamaxı faciəsini Stepan Lalayev (Lalayan), Gavriyil Karaoğlanov, Gülbandov, Mixail Arzumanov, Karapet Karamanov, Şuşintsa Ağamalova, Sedrak Vlasov, Samuel Daliyev, Petrosyants, İvanovlar (oğul və babası) və Şamaxının yerli erməni əhalisi tərəfindən törədilmişdi. Fövqəladə Komissiyanın üzvü A. F. Novatski öz məruzəsində Şamaxı şəhərinin darmadağın edilməsi və həmin şəhərin müsəlman əhalisinə qarşı ermənilərin və onlarla birgə molokanların törətdikləri vəhşiliklər haqqında geniş məlumat vermişdi. Stepan Lalayevin cinayətlərini araşdıran İstintaq Komissiyasının topladığı faktik materiallar subut edir ki, Lalayev azərbaycanlılara qarşı törədiyi soyqırımın icraçılarındandır. Onun Şamaxıda törətdiyi dəhşətli qırğınlara rəhbərlik etməsi şahid ifadələrində də öz əksini tapmışdır. Şahidlərin dediyinə görə Stepan Lalayev özünün cinayətkar silahdaşları Samson Aspirov və Saatzazbekovla birlikdə böyük bir erməni əsgər dəstəsinin başında Şamaxıya gəlmişdi. Onun quldur dəstəsi burada qadın, uşaq və qocaların da gizləndiyi məscidə od vurub yandırmış, çıxıb qaçmaq istəyənləri isə güllələmişlər. On üç məhlə məscidi və məşhur müqəddəs Ocaq – Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm qibləgah kimi, həm də qədim abidə kimi əziz idi. Şamaxıda böyük hörmət sahibi olan Axund Cəfərquluya amansız işgəncələr verilmişdi. Ermənilər axunda pənah gətirmiş saysız – hesabsız qadın və uşağı da öldürmüşdülər. Şamaxı hadisələri ilə bağlı "Azərbaycan" qəzetində gedən bir yazıda qeyd olunmuşdu ki, S. Lalayevin Şamaxı müsəlmanlarına tutduğu divan bizim bu müharibə dövründə üzləşdiyimiz bütün dəhşətləri geridə qoyur.

**Məhəmməd Əmin Rəsulzadə qeyd edirdi:**

***" Ski Şirvanşahların bu qədim paytaxtı bir həmlədə atəşə verilib məşhur tarixi cameyə varıncaya qədər yaxıldı. Yalnız erməni məhləsi salamat buraxıldı. Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Səlyan, Quba, Nəvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələri dəxi məruz qaldı. Bu təcavüzlər əsnasında yaxılan xanimanların, qıyılan ərz və namusların, kəsilən qarı-qocaların, yağmaya gedən mal və məvaşinin təsviri qeyri-qabili – təsəvvür bir faciə təşkil edir."***

Ermənilər tərəfindən öldürülənlər içərisində görkəmli adamlar və ictimai xadimlər də olmuşdu. Məsələn, şəhər başçısı Teymur Xudaverdov, birinci Dövlət Dumasının keçmiş üzvü Məmməd Tağı Əliyev və bir çox başqalarını göstərmək olar.

Şamaxı soyqırımı zamanı öldürülənlərin sayı haqqında müxtəlif məlumatlar mövcuddur. Bəzi məlumatlarda öldürülənlərin sayı 7 min, bəzilərində 8 minə qədər, bəzilərində 8–12, bəzilərində isə 40 minə qədər olduğu göstərilir. 1920-ci ildə mühacir ədəbiyyatında öldürülənlərin sayı bir mənbədə 12 minə qədər, digər bir mənbədə isə 17 min nəfər olduğu göstərilir.

Ekspertlərin arxivdəki aktlarda olan rəqəmlər üzrə hesablamalarına görə Şamaxı qəzasının 53 kəndində 8027 nəfər azərbaycanlı qətlə yetirilmiş, onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Hesablamalara görə bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olmuşdur. Digər mənbədə isə Şamaxının 72 kəndində 7 min nəfər, 1653 qadın və 965 uşağın qətlə yetirildiyi bildirilir.

Hətta, St. Şaumyanın başçılıq etdiyi Bakı Soveti ermənilərin Şamaxıda törətdiyi qırğınları dolayısı ilə etiraf etmişdilər.